# THE ROLE OF BORROWED WORDS IN THE HISTORY OF THE DEVELOPMENT OF THE GERMAN LANGUAGE

Z. Sh. Rustamova
Azerbaijan State Academy of Physical Education and Sport
Head teacher at the Department of Social Sciences

**Annotation:** The article is devoted to the development of the German language, enrichment of the German language with the borrowings adopted from different languages in different periods of time. The reasons of borrowed lexis are stated. Some of the loan-words are given in the article.

**Key words:** German, developmental history, vocabulary, borrowings.

# İNGİLİS DİLİNİN KOMMUNİKATİV YÖNÜMLÜ TƏDRİSİNDƏ MULTİMEDİYA PROQRAM MODELİNİN TƏRTİBİ.

Axundova Turan Rauf qızı
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Sosial Elmlər kafedrasının müəllimi
turan.akhundova@sport.edu.az

**Nəşr tarixi**
Qəbul edilib: 11 yanvar 2020
Dərc olunub: 5 mart 2020
© 2020 ADBTİA. Bütün hüquqlar qorunur

**Annotasiya:** Məqalədə tədris prosesi zamanı multimediya və informasiya-kommunikativ texnologiyalarından istifadənin üstünlükləri təsvir edilmişdir. Burada eləcə də innovativ texnologiyalar vasitəsi ilə multimediya proqram modelinin tərtibi prinsipləri, tədrisdə tətbiq istiqamətləri göstərilmişdir. Məqalədə multimediya proqram modeli pedaqoji sistem daxilində nəzəri model kimi təqdim edilmiş, tələbələrdə kommunikativ qabiliyyətlərin inkişaf etdirilməsində yeni bir yanaşma kimi qeyd olunmuşdur.

**Açar sözlər:** multimediya, tədris prosesi, multimediya proqram modeli, kommunikativ qabiliyyət, pedaqoji proqram.

**Giriş.** Bu gün ali təhsil ocaqlarından təlim və tədris prosesi zamanı tələbələrin professional kommunikativ və yaradıcı qabiliyyətlərinin inkişafına zəmanət verən bir sıra yeni yanaşmaların daxil olunması tələb olunur. Lazımi məlumatların əldə edilməsi, kommunikativ qabiliyyətlərin inkişaf etdirilməsi, çətin vəziyyətlərdə operativ qərarlar qəbul etmə bacarığının yeridilməsi üçün tələbələrə tədris prosesi zamanı müasir texnologiya və əlaqə vasitələrindən istifadə üçün lazımi şərait yaradılmalıdır. Bütün bunlar müasir informasiya və innovativ - kommunikativ texnologiyalara əsaslanmış tədris prosesinin köməyi ilə mümkündür.

Müasir dövrümüzdəki imkanları nəzərə alaraq bu cür vasitələrin tədris prosesinə daxil edilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Burada bizim vəzifəmiz ali məktəb çərçivəsində tədris prosesi zamanı innovativ texnologiyalardan effektiv şəkildə istifadə etməkdir.

Tədris prosesinin informasiyalaşdırılması və ya başqa sözlə desək informasiya və komputer texnologiyalarının tədris prosesinə tətbiqi yalnız yeni texniki vasitələr deyil, həmçinin tədrisə yeni forma və metodlarla olan yeni yanaşma deməkdir. Bu texnologiyaların ingilis dilinin tədrisinə tətbiqi müəllimin qarşısında geniş prioritetlər açır. Burada müəllimin əsas məqsədi tələbələrin ingilis dili üzrə kommunikativ qabiliyyətin və dilə praktik yiyələnməni formalaşdırmaq və inkişaf etdirməkdir.

**Tədqiqat metodları.** Müşahidələr və eləcə də müəllim və tələbələr arasında aparılan sorğular onu deməyə əsas verir ki, dil fakültələrinin aşağı kurslarında təhsil alan tələbələrdə ingilis dili üzrə kommunikativ yönümlü tədrisə keçid problemi hələ də öz həllini tam şəkildə tapmamış məsələlərdən biri olaraq qalmaqdadır.

Tələbələrə kommunikativ səriştənin formalaşdırılması və inkişaf etdirilməsi məqsədilə təqdim edilən tədris, dil öyrənənlərə, dil daşıyıcılarının şifahi kommunikasiya prosesində riayət etdiyi verbal və qeyri-verbal

davranış normalarının səmərəli şəkildə aşılanmasını təmin etməlidir.

Multimediya proqramlarından istifadə yalnız dil fənni üzrə tələbələrdə kommunikativ səriştənin effektiv şəkildə formalaşdırılması ilə yanaşı həm də müəllimin bir pedaqoq kimi potensialının artırılmasına zəmin yaradır. müəllim dərs prosesini planlaşdırdıqda, prosesin son nəticəsinə yönəldikdə mütləq nəzərə almalıdır ki, tədris prosesinin effektivliyi müəllimin ötürdüyü informasiya deyil, həmin ötürülən informasiyanın qavranılma səviyyəsindən asılıdır.[1].

*Multimediya dərs proqram modeli*

Multimediya dərs proqram modeli dedikdə tədris prosesi zamanı məlumatın, biliyin mətni, qrafik, audio və video rejimdə tələbəyə çatdırmağa imkan verən, multimediya proqramlarının texniki, didaktik tədris üsullarının vahid bir pedaqoji proqramda cəmləşdirilməsidir.

Multimediya dərs proqram modelinin gündəlik pedaqoji- metodik planla vəhdəti, ali təhsil müəssisələrində ingilis dilinin tədrisinin bütün mərhələlərində, tədrisin keyfiyyətinə effektiv təsiri danılmaz bir faktordur – istər praktik məşğələlər, istər auditoriya daxili nəzəri dərslər, istərsə də fərdi, individual hazırlıq.

İngilis dilinin kommunikativ yönümlü tədris prosesi zamanı multimediya proqram modelinin əsas mahiyyəti tələbələrin tədrisdə aktiv şəkildə iştirakını təmin etməklə yanaşı, keçirilən mövzuları tələbələrə maraqlı üsulla qavramağa imkan yaratmaqdır. Fikrimcə, multimediya proqram modeli tamamilə buna imkan verir. Onun əsas məğzi tədris planına uyğun mövzuları əyani şəkildə, tələbəni maraqlandıran formada, təşkil edərək auditoriyaya çatdırmaqdır.

Multimediya proqram modeli imkan yaradır ki,

- Koorperativ tədrisi təmin etmək;
- Dinamiklik;
- Auditoriyada diskussiya mühitinin yaradılması;
- Tələbəyə fərdi yanaşma;
- Mövzunu daha da əhatəli şəkildə çatdırmaq.

Alim, pedaqoq İ.V.Krılova əsasən multimediyanın dərs proqram modelinə ümumiyyətlə tədris sisteminə tətbiqi konkret didaktik və metodiki tələblərə cavab verməlidir:

- Hər bir tələbənin individual imkanlarına uyğunlaşdırılmalı;
- Interaktiv və kommunikativ tədrisə yönümlü olmalı;
- Elektron biliklərin tədrisi biliklərə çevirmə imkanından yararlanmalı;
- Tələbənin intelektual potensialını artırmalı;
- Təqdim olunmuş tədris materialı ilə sistemli və struktur-funksional əlaqələndirilməli;
- Tədrisin didaktik dövriyyəsini qoruyub saxlamalı.

**Nəticələrin təhlili.** Yuxarıda qeyd olunanları nəzərə alsaq vurğulamaq olar ki, multimediya dərs proqramı verbal-məntiqi tələblərə cavab verməli, eləcə də tələbənin ixtisasına, yaş kateqoriyasına və koqnitiv (düşüncə) qabiliyyətinə uyğun şəkildə qurulmalıdır.[2].

Bu proqram modeli auditoriyanın ümumi bilik səviyyəsini nəzərə alınmaqla tərtib olunmalı, deyilən, izah edilən nəzəri materialı, əyani formada tələbələr üçün daha aydın, anlaşılan və qəbuledilən formaya salır.

| Nəzəri material → | Multimediya proqram modeli./Materialın əyaniliyi → | Tələbənin qavrayışı |
|---|---|---|
| I | II | III |

Cədvəl.2.3. Materialın anlayış mərhələləri.

Multimediya proqram modelinin əsasında, tədris prosesi zamanı istifadə olunan informasiya durur. Ümumi tərkibinə görə tədrisi-metodiki informasiya heterogen (müxtəlif formalı) xarakter daşıyır.Məhz bu baxımdan multimediya proqram modelinin tərkibinin əsas məqsədi bu heterogen informasiyanın bir, yekdil formada, “üslubda” toparlayıb göstərməkdir.Buradan belə bir sual doğur? Bunu necə etmək olar? Suala cavab vermək üçün işin dəlillərindən istifadə edək.

Birincisi, nəzərə almaq lazımdır ki, hansı kurs

və hansı auditoriya səviyyəsi üçün tərtib olunur. İkincisi, tədrisi-pedaqoji plana uyğun bütün elementlər, mövzular qarşılıqlı vəhdətlə multimediya proqramına daxil edilir.
Multimediya proqram modelinin tərtibində ilk nəzər yetirəcəyiniz element taksonomiya prinsipidir. Yəni, bizi maraqlandıran bilik materialının sistemliliyidir. Bu prinsip insan həyatında, həyatı dərk etmək yönəmində olduqca böyük rol oynayır. Həyat tərzini, bilik, informasiya qavranılmasında sistemliliyin gözlənilməsi olduqca önəmli faktordur. Multimediya proqram modelinə elmi yanaşma yönəmindən düzgün tərtibatı evretik funksiya əsasında düzənlənməsi əhəmiyyətli göstərici hesab olunur.[3].
**Yekun nəticələr.** Müxtəlif pedaqoji ədəbiyyatlara qeyd olunanları ümumiləşdirsək,aşağı mərhələ tələbələrin ingilis dili üzrə kommunikativ səriştəsinin formalaşdırılmasında multimediya proqram modelinin tərtibində aşağıdakı prinsiplər nəzərə alınmalıdır:

**Multimediya proqram modelinin tərtib qaydaları**

| |
|---|
| ❖ funksional dil materiallarının tərkibində müvafiq qrammatik materialın nəzərə alınması; |
| ❖ leksik vahidlərin nitqdə sərbəst və sürətli işlədilməsinə nail olmaq üçün tələbələrə eyni bir situasiyaya aid müxtəlif dil materiallarının və danışıq strukturların təqdim olunması; |
| ❖ tapşırıqlı təlim və problemlər üzərində təlimin təşkili; |
| ❖ müxtəlif vizual əyaniliklərin təmin olunması; |
| ❖ İKT imkanlarından istifadə etmək; |
| ❖ tələbələrdə diqqətlə dinləmək, danışmaq və müşahidə qabiliyyətlərinin formalaşdırılması; |
| ❖ tələbələrdə kontekst daxilində fikrini sərbəst ifadə etmək üçün imkanın yaradılması; |
| ❖ intensiv kommunikasiya prosesini təşkil etmək; |
| ❖ psixoloji müsbət dil mühitinin yaradılması və mənfi çalarları aradan götürmək; |
| ❖ inkişaf yönümlü təlim və dəstəkləyici mühit yaratmaq; |
| ❖ tələbə nailiyyətlərinin qiymətləndirməsini aparmaq. |

Yaxşı tərtib olunmuş multimediya proqram modelinin elmi klassifikasiyası möhkəm bazanın yaradılması və materialın izahında böyük rol oynayır.

**Ədəbiyyat**

1. Скурихина Ю. А. Современные электронные образовательные ресурсы/ Использование современных информационно-коммуникационных технологий в работе педагога. / М -2018. – С. 11–19.
2. Международный Научно-исследовательский журнал./ Выпуск 4/ часть3- Москва- 2016 . стр.11-15.
3. www.apn.ru/publications/article27077.html

## СОЗДАНИЕ МУЛЬТИМЕДИЙНОЙ ПРОГРАММНОЙ МОДЕЛИ В КОММУНИКАТИВНОЙ ОБУЧЕНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

Ахундова Т.Р
Азербайджанская Государственная Академия
Физической Культуры и Спорта
Преподаватель кафедры социальных наук

**Аннотация:** В статье рассмотрены преимущества использования мультимедийных и информационно-коммуникативных технологий в преподавании. Здесь также представлены принципы создания модели мультимедийных программ, а также способы его применения. В статье мультимедийная программная модель была представлена как теоретическая модель внутри педагогической системы и была рассмотрена как новый подход в усовершенствовании коммуникативных навыков у студентов.
**Ключевые слова:** мультимедиа, педагогический процесс, мульти-медийная программная модель, коммуникативные навыки, педагогическая программа.

## CREATION OF MULTIMEDIA PROGRAM MODEL IN COMMUNICATIVE TEACHING OF ENGLISH

Akhundova T.R.
Azerbaijan State Academy of Physical Education and Sport
Lecturer at the Department of Social Sciences

**Annotation:** This article investigates advantages of using multimedia and informative-communicative technologies in English teaching process. Here also you can find principles of creating multimedia program model and its using within the teaching process. The multimedia program model was given here like a theoretical model in teaching and was investigated as a new approach in developing of communicative abilities of students.

**Key words:** multimedia, educational process, multimedia program model, communicative abilities, pedagogical program.

## SPORTS PARTICIPATION PATTERNS OF PUPILS IN AZERBAIJAN: ON THE WILLINGNESS TO PARTICIPATE IN AN EXTRA-CURRICULAR SPORT EVENT

Pasha Sh.T.
Azerbaijan State Academy of Physical Education and Sport
shahin.pashazadeh2017@sport.edu.az

**Publication date**
Accepted: January 11, 2020
Published: March 5, 2020
© 2020 ADBTİA. All rights reserved.

**Annotation:** The main purpose of sports is to create conditions and opportunities for all segments of the population, regardless of their physical, mental and material capabilities, especially for schoolchildren to realize their knowledge and skills, thereby achieving comprehensive development in areas that will positively affect their lives, including education and health. . There is a special care for sports in our country. Over the past 10 years, many sports complexes, facilities, halls have been built, playgrounds have been built, and large sports and health centers have been established for the development of sports. In addition, sports infrastructure has begun to develop in schools. However, in addition to infrastructure, it is very important to hold special sports classes and develop extracurricular activities to increase participation in sports in schools. In order to increase participation in sports in schools and educational centers, it is necessary to find out what kind of sport students are interested in and their talent, and to direct them in this direction. If we increase the interest of students in sports from the lower grades and make sports their way of life, we will see a